# VERGİ ÖDƏYİCİLƏRİ E-İMKANLARDAN MƏMNUNDURMU?

Sabit Bağırov,
Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti

# Təqdimatın içindəkiləri

1. SBİİYF haqqında qısa məlumat;
2. Nəticələri təqdim edilən araşdırmanın predmeti;
3. e-imkanların qısa xülasəsi;
4. e-xidmətlərin qısa xülasəsi;
5. Araşdırma metodolojisi;
6. Araşdırmanın nəticələri;
7. Təkliflər

# SBİİYF haqqında qısa məlumat

1. Təsis tarixi: 23.02.1994;
2. Təsisçilər: 11 özəl şirkət və bank;
3. Məqsədlər: sahibkarlıq mühitinin yaxşılaşmasına və bazar iqtisadiyyatının möhkəmlənməsinə dəstək;
4. Fəaliyyət növləri: sahibkarlıq mühitini təhlilləri, qanunvericiliyin təkmilləşdirilməsinə yönələn araşdırmalar, sahibkarlar arasında sorğular, konfranslar və dəyirmi masaların keçirilməsi, təkliflərin hazırlanması və aidiyatı olan dövlət qurumlarına təqdim edilməsi;
5. Son illərdə sahibkarlığın inkişafına yönələn layihələr:
   - "Kiçik sahibkarlığın inkişafına dəstək", donor - USAID;
   - "Qadın gücünə güc", donor – Avropa Birliyi;
   - "Gənclərin iqtisadi islahatlarda iştirakının gücləndirilməsi", donor - CIPE;

# Nəticələri təqdim edilən araşdırmanın predmeti

Nəticələri təqdim edilən araşdırmanın predmeti vergi ödəyicilərinin Vergilər Nazirliyi tərəfindən veb-səhifəsi (http://www.taxes.gov.az/ ) vasitəsi ilə onlara göstərilən e-xidmətlər və daha geniş mənada faydalanma e-imkanlardan məmnunluğu olmuşdur.

# e-imkanların qısa xülasəsi

- Qanun-vericilik
- Statistika və hesabatlar
- e-xidmətlər
- Asan imza
- Bir Pəncərə
- Sorğular
- Bəyannamələr barədə məlumatlar
- Vergi ödəyicilərinə xidmət mərkəzləri
- Sahibkarların vergi bələdçisi
- Qəbul qrafikləri
- Vergilər Naziri ilə birbaşa əlaqə
- Video qəbul
- Vergi Nazirliyi rəhbərliyinin (mərkəzi və yerli) əlaqə telefonları və e-mail ünvanları
- Vergi qanunvericiliyinin və inzibatçılığın təkmilləşdirilməsinə dair təkliflərin qəbulu
- 195 – qaynar xətt
- Sual-cavab
- Müraciətlər
- "Vergi dostları" şəbəkəsi
- Faydalı məlumatlar
- Səhifə yeniliklərinə abunə
- İşə qəbul Müsabiqələri
- Axtarış bazası: 1) İstehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri üzrə; 2) Dövlət Xəzinədarlığı orqanlarında vergi və digər büdcə ödənişləri köçürüləcək hesablar; 3) Vergi uçotuna alınmış vergi ödəyiciləri barədə məlumatın verilməsi

# e-xidmətlərin qısa xülasəsi

Vergi ödəyicilərinə 58 növdə e-xidmətlər təklif edilir. Bunlardan bəziləri burada göstərilməkdədir:

1. Elektron bəyannamənin qəbulu;
2. Sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsi;
3. Elektron vergi hesab fakturasının qəbulu;
4. Vahid depozit hesabı vasitəsilə ƏDV üzrə elektron ödənişlərin və əvəzləşmələrin aparılması;
5. Vergi və digər büdcə daxilolmalarının internet vasitəsilə ödənilməsi;
6. Fərdi sahibkarların onlayn qeydiyyatı;
7. Kommersiya hüquqi şəxslərin onlayn tıeydiyyatı

# Araşdırma metodolojisi

Vergi ödəyicilərinin məmnunluğunu qiymətləndirmək məqsədi ilə:

- SBİİYF tərəfindən şirkətlər arasında sorğular aparılıb;
- SBİİYF tərəfindən qeyri-hökumət təşkilatları arasında sorğular keçirilib;
- Şəffaflıq – Azərbaycan təşkilatının və Multimedia şirkətinin araşdırmaları nəzərdən keçirilib;
- Vergilər Nazirliyinin veb-səhifəsi təhlil edilib;
- Digər dövlət qurumlarının veb-səhifələri ilə müqaisələr aparılıb

# SBİİYF tərəfindən FORUM ərəfəsində şirkətlər arasında aparılan sorğuların nəticələri

Sorğuda həm şirkət rəhbərləri (mühasiblər), həm də fərdi sahibkarlar iştirak etmişlər (cəmi 79 nəfər). Sorğu Bakı, Gəncə və Quba vergi ödəyiciləri arasında telefon vasitəsi ilə aparılıb. Sorğuda birinci sual: “Siz e-imkanlardan və o cümlədən e-xidmətlərdən istifadə edirsinizmi?”. İkinci sual, birinciyə cavabdan asılı olaraq: 1) e-imkanlardan və o cümlədən e-xidmətlərdən məmnunsunuzmu? 2) E-imkanlardan və o cümlədən e-xidmətlərdən şəxsən istifadə etməməyinizin səbəbi nədir? Nəticələrə əsasən e-imkanlardan və e-xidmətlərdən sorğu iştirakçılarının böyük əksəriyyəti şəxsən (sahibkar özü və ya mühasibi) istifadə edir və bunların da hamısı e-xidmətlərindən məmnundur. Bu nəticələr əlbətdə ki, yüksək qiymətləndirilə bilər. İstifadəçilərdən bəziləri məmnun olduqları ilə yanaşı bir neçə iradlarını da bildirmişlər. Bu iradlar əsasən texniki xarakter daşıyır (məsələn hesabat vaxtının sonuna yaxın sistemə daxil olmaq xeyli çətinləşir və kəsintilər müşahidə edilir).

# SBİİYF tərəfindən 2011 ildə 700 kiçik sahibkar arasında aparılan sorğuların nəticələri

Sorğu Bakı, Gəncə və digər 18 rayon mərkəzlərində fəaliyyət göstərən sahibkarlar arasında keçirilmişdir. 700 sahibkardan yalnız 31,0%-i vergi bəyannamələrini elektron yolla təqdim etdiyini bildirmişlər. Daha 18,4% respondent bu imkandan istifadə etməyə hazırlaşdığını qeyd etmişdir. Lakin 47,4% bu imkandan istifadə etməyə ehtiyac duymadığını vurğulamışdır. 2011-ci ildə bu növ e-xidmətdən az istifadə regionlarda kompyuterləşmənin nisbətən ləng getdiyi ilə izah edilirdi. Bu rəqəmləri hazırki durumla müqaisə edərək qeyd edə bilərik ki, e-xidmətlərin genişlənməsində böyük uğurlar əldə edilib.

Gördüyümüz kimi, son illərdə böyük nailiyyətlər əldə edilib. 2014-cü ilin sonuna vergi ödəyicilərinin 95% bəyyannamələrini elektron formada təqdim edirlər (VN məlumatlarına əsasən).

# SBİİYF tərəfindən aparılan sorğularda e-xidmətdən şəxsən istifadə etməyən sahibkarların qeyd etdiyi səbəblər

- Mənim üçün bu çətin işdir, bu sistemdə işləmək təcrübəm yoxdur;
- Mən elektron sistemə etibar etmirəm, ehtiyat edirəm ki, o zaman hər hansı problem olarsa, sonda cavab verməli mən olacam.

Şəxsən e-xidmətlərdən istifadə etməyənlərin də böyük əksəriyyəti bunu üçüncü tərəflərin (o cümlədən VN yerli mərkəzlərinin) vüsitəsi ilə edirlər.

# SBİİYF tərəfindən FORUM ərəfəsində qeyri-hökumət təşkilatları arasında sorğunun nəticələri

Bu ekspress sorğuda 47 QHT rəhbəri iştirak edib və onların hamısı yalnız e-formada bəyyanamələri təqdim etdiklərini bildirmişlər. Binların da hamısı e-xidmətlərdən məmnun olduqlarını bildirmişlər.

# Şəffaflıq – Azərbaycan təşkilatının və Multimedia şirkətinin araşdırmaları

Həmin araşdırmalarda Vergilər Nazirliyi e-xidmətlərə görə lider mövqedədir.

Hesabatlar:

1. Azərbaycanda elektron hökumət infrastrukturunun və elektron xidmətlərin monitorinqi və qiymətləndirməsi üzrə hesabat. Şəffaflıq - Azərbaycan Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin nəşri, dekabr 2014
2. Milli şəffaflıq sisteminin qiymətləndirilməsi üzrə hesabat. Şəffaflıq - Azərbaycan Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi, 2014

# Bəzi təkliflər

1. Serverin gücünün artırılması;
2. Kəsintilərdən sonra istifadəçi məcbur olur öncə daxil etdiyi məlumatları yenidən daxil etsin. Bu problem aradan qaldırıla bilər;
3. E-xidmətlərin təsnifatlandırılması və qruplaşdırılaraq veb-səhifədə rahat istifadəni daha da yaxşılaşdırılması;
4. E-xidmətlərin smartfon üçün versiyasının hazırlanması;
5. Bəzi məlumatların təkrar tələb edilməsinin ləğv edilməsi (başqa hesabat formalarında);
6. Kalkulyatorlar sayının artırılması;
7. Vergi Patent sisteminin genişləndirilməsi və patentin on-line rejimində alınması

# TƏŞƏKKÜRLƏR

Sabit Bağırov,
Sahibkarlığa və Bazar İqtisadiyyatının İmkişafına Yardım Fondu
Tel: 055-214-07-32
E-mail: bagirov.sabit@gmail.com